Sivilizasiya,
Bakı Avrasiya Universiteti

Cild 13, № 5, 2024 (61)

**UOT 1:001**

# MİLLİ SOSİAL-MƏDƏNİ MÜHİTDƏ ELİTARLIQ VƏ KÜTLƏVİLİK MƏSƏLƏLƏRİ: QARŞILIQLI ƏLAQƏLİLİK

**Məhsəti CƏFƏROVA***

Məqalə redaksiyaya daxil olmuşdur: 3 oktyabr 2024; çapa qəbul edilmişdir: 1 noyabr 2024; online-da çap edilmişdir: 11 dekabr 2024.

Received: 3th of October, 2024; accepted: 1th of November, 2024; published online: 11th of December, 2024.

**Açar sözlər:** *milli mədəniyyət, sosial-mədəni mühit, elitar mədəniyyət, kütləvi mədəniyyət, ümumbəşəri mədəniyyət, milli xüsusiyyətlər, milli-etnik inkişaf, elitar inkişaf, çox mədəniyyətlilik, qloballaşma*

## Giriş

Müxtəlif xalqların mədəniyyəti inkişaf etdiyi mühitdə müvafiq tarixi zaman çərçivəsində öz inkişaf fəaliyyətini təcəssüm etdirdiyi dövrlər ərzində sürətli şəkildə və yaxud ləng formada bəşəriləşir, dünya mədəniyyəti müstəvisində özünü göstərməyə başlayır. Bütün bu proseslərdə ayrı-ayrı xalqların mədəniyyəti bəşər mədəniyyətini zənginləşdirməklə yanaşı, özü də təkmilləşir, yeni forma və məzmuna malik olur. Beləliklə, bir xalqın maddi və mənəvi sərvətlərinin məcmusu bəşər mədəniyyətinin zənginləşməsi mənbəyinə çevrilir, eyni zamanda digər mədəniyyətlərə və ümumilikdə götürdükdə dünya mədəniyyətinə milli-mədəni xüsusiyyətlər gətirir. Nəzərə alınmalıdır ki, milli mədəniyyətlərdəki koloritlilik milli tərəqqini təcəssüm etdirsə də, yeganə meyar kimi qəbul edilməməlidir. Yəni o, həddindən artıq əsassız olaraq şişirdilib ifrat səviyyəyə çatdırılmamalıdır. Beləliklə də, milli-mənəvi tarixə, mədəniyyətə, dəyərlərə, zənginliklərə hörmətlə yanaşılmalı, humanist ideyaların inkişafına, inteqrativ mədəni proseslərin yaranmasına diqqət yetirilməlidir. Bu proses məhz xalqın elitar gücünün zaman-zaman formalaşması ilə sıx surətdə bağlıdır. Çünki mədəniyyət qapalı proses deyildir, o açıq şəkildə bəşəri məzmuna malik olan maddi, mənəvi-əxlaqi və zənginləşdirici təsir gücünü müxtəlif vasitələrdən istifadə yolu ilə nümayiş etdirir. Bütün tarixi inkişaf mərhələlərində mədəniyyət xalqın ictimai fəaliyyətinin məzmununu ayrı-ayrı üsul və formalar vasitəsilə real şəkildə təcəssüm etdirir. Buna görə də, hazırki inkişaf dövründə milli mədəniyyətlərin özlərinə məxsus ənənəvi xüsusiyyətləri qarşılıqlı mənəvi zənginləşmə və humanistləşmə prosesinə xidmət etməlidir. Tarixi dövr zənginliklərini özündə yaşadan və bəşəriləşdirən belə bir fəaliyyət mexanizminin həyata keçirilməsi milli adət-ənənələrin və həmçinin milli hissin məzmun və mahiyyətinin bütün tərəflərinin sosial bazasını genişləndirir, xüsusilə də milli mədəniyyətin azad inkişafı mühitini yaradır.

## 1. Şəxsiyyətin formalaşmasında mədəniyyətin rolu

Mədəniyyət və mədəni sərvətlər şəxsiyyətin dünyagörüşünün və sosial keyfiyyətlərinin formalaşmasına, davranış normalarının qərarlaşmasına mühüm təsir göstərən amillərdən biridir. Müəyyən mədəni səviyyəyə malik olmayan insan öz hərəkətlərini məntiqi

* *fəlsəfə üzrə fəlsəfə doktoru, Bakı Biznes Universiteti*
*e-mail:* ceferovamehseti@inbox.ru

**https://doi.org/10.30546/25194011.2024.13.5.0122**

ardıcıllıqla qurmağa qadir deyildir. Mədəniyyətin şərti modellərindən, başqa sözlə, simvollar sistemindən istifadə etmədən insanın davranışı mənasız hərəkətlərdən, idarə olunmayan emosiyalardan ibarət olardı. Yalnız cəmiyyətdə, sosial-mədəni mühitdə, başqaları ilə ünsiyyət prosesində fərdin əqli və fiziki qabiliyyətləri inkişaf edir və o, insani keyfiyyətlər əldə edir. Mədəniyyət həmçinin insan təbiətindəki aqressiv cəhətləri məhdudlaşdırmağa kömək edir, onları bu və ya digər formada təzahür etməyə qoymur. Lakin bununla belə mədəniyyətin insanın davranışına göstərdiyi təsirini azaldan müəyyən amillər də mövcuddur. Araşdırmalar göstərir ki, cəmiyyət üzvlərinin mədəni səviyyələrinin yüksək olduğu hallarda asayişin, birgəyaşayış normalarına əməl etməyin səviyyəsi də yüksək olur, başqa sözlə, mədəniyyət özünün sosial nəzarət funksiyasını daha fəal şəkildə yerinə yetirə bilir.

Mədəniyyətin mürəkkəb tərkibli olması və onun çətin tədqiq edilməsi barəsində yazan professor İ.Məmmədzadə eyni zamanda qeyd edir ki, təkamül biologiyası, informasiya texnologiyaları, koqnitiv psixologiya, fəlsəfə, etika haqqındakı bilikləri sintezləşdirməklə mədəniyyət haqqında tədqiqat işləri aparmaq olar. Bunun üçün mədəniyyət, əxlaq, etikanın biologiya və fizika ilə əlaqələrini bilmək zəruridir. Mədəniyyət insanın daha yaxşı yaşaması üçün onun həyatından mənfilikləri çıxarmalıdır. Ölkəmizdə insanların rahat yaşaması üçün milli suverenlik kursu seçilib, məntiqli islahatlar aparılır və cəmiyyət modernləşdirilir. Hakimiyyətin marağı dövlətin güclü olması və burada əhalinin yaxşı yaşamasıdır. Dövlət və elm, dövlət və cəmiyyət, dövlət və mədəniyyət arasında sıx əlaqələr olmalıdır. Bütün uğurlara baxmayaraq xalqın təhlükəsizliyini təmin etmək, iqtisadiyyatda, siyasətdə və mədəniyyətdəki kursu davam etmək üçün hər şeydən öncə siyasət, iqtisadiyyat və mədəniyyətin idarəetmə sistemində islahatlar aparılması lazımdır [12, s.191-192].

Bir sıra alimlər mədəniyyəti iki yerə-ümumbəşəri mədəniyyətə və milli mədəniyyətə bölürlər. Ümumbəşəri mədəniyyət deyərkən, onlar sivilizasiyanı nəzərdə tutur. Onun milli mədəniyyətlə əlaqəsini birtərəfli şəkildə şərh edirlər. Məsələn, Z.Göyalp özünün "Türkçülüyün əsasları" kitabında milli mədəniyyətdə sivilizasiyanin məhvedici gücündən bəhs etmişdir. O, sivilizasiya əldə edən xalqların öz doğma tarixi, maddi və mənəvi dəyərlərindən təcrid olunduqlarını qeyd edir və göstərir ki, məhz belə prosesdən sonra həmin xalqlar mədəniyyətləri tənəzzülə uğramış digər millətlər qarşısında acizlikləri ilə seçilir, tez bir zamanda məğlubiyyətə düçar olurlar [5, s. 45]. Millətlərin qarşılıqlı əlaqələrini tənzimləyən milli-mənəvi haqlarını qoruyan milli siyasətin əsaslandığı əsas amillərdən biri də milli mədəniyyətdir. Milli ideologiya məhz milli mədəniyyət vasitəsilə ümumbəşəri dəyərlərə qovuşur. Məlumdur ki, milli ideologiyanı, dünyagörüşü, ümumiyyətlə, elmi, dini, mənəvi, əxlaqi və digər baxışları özündə ehtiva edən mədəniyyət keçdiyi tarixi dövrlərdə inkişafını davam etdirmiş və öz səciyyəvi xüsusiyyətləri ilə digərlərindən fərqlənmişdir. Məhz xalqları bir-birindən fərqləndirən, tanıdan, eyni zamanda zənginliklərindən xəbər verən də həmin xüsusiyyətlər olmuşdur [9]. Araşdırmalardan məlum olmuşdur ki, xalqları irəli aparan onların zəngin mədəniyyətləri olmuşdur.

Tədqiqatçı-alim N.Abbasov dövlətçilikdə mədəniyyətin roluna diqqət yetirərək milli mədəniyyətimizin uğurlu siyasəti sayəsində böyük nailiyyətlərin əldə edildiyini göstərmişdir. O həmçinin qeyd etmişdir ki, illərlə əldə edilən mədəni uğurlarımız göstərdi ki, dövlət müstəqilliyimiz öz inkişafını daha da sürətləndirməkdədir. Ulu Öndər Heydər Əliyevin milli-mənəvi, dini dəyərlərimizə, adətlərimizə, ənənələrimizə böyük önəm verməsi, qədim tarixə malik xalqımızın minilliklər ərzində yaratdıqları, qoruduqları adət-ənənələrimizə, qədim və zəngin mədəniyyətimizə yüksək dəyər verməsi hər birimizdə böyük qürur hissi yaradır. Ulu öndərimiz həm də minilliklər ərzində xalqımız tərəfindən qorunan və bu günə qədər ötürülən adət-ənənələrimizi mənəviyyatımızın amilləri hesab etmişdir [2, s. 10].

Mədəniyyət anlayışı ilə bağlı filosof, alim-tədqiqatçıların fikir və mülahizələrində eynilik və qismən fərqlilik mövcuddur. Eynilik ondan ibarətdir ki, birincisi, mədəniyyət insan fəaliyyətindəki yaradıcılıqdan yaranır və bu yaradıcılığın gücündən asılı olaraq onun bəşər mədəniyyətinə çevrilməsi sürəti özünü göstərir. İkincisi, milli mədəniyyətlər formalaşma, yəni həmin xalq tərəfindən qəbul edilmə səviyyəsinə çatır. Üçüncüsü, bəşər mədəniyyəti daxilində öz xüsusiyyətlərini qoruyan milli mədəniyyət, digər mədəniyyətlərdən seçilir və zaman-zaman aparıcı mövqeyə malik olur.

## 2. Milli xüsusiyyətlər və fərqlilik

Fərqliliyə gəldikdə qeyd olunmalıdır ki, birincisi, hər xalqın milli xüsusiyyətləri, adət-ənənələri, maddi fəaliyyət istiqamətləri, mənəvi dəyərləri, keçdiyi tarixi inkişaf yolu öz mədəniyyətində mühüm və aparıcı mövqedə durur. İkincisi, milli mədəniyyət xalqın azsaylı və çoxsaylı olmasından asılı olmayaraq, yetişən şəxsiyyətlərin fəaliyyəti ilə bilavasitə əlaqədardır. Üçüncüsü, milli siyasi, iqtisadi, elmi və digər istiqamətli inkişaf prosesi həmin xalqın milli mədəniyyətinin inkişafına bu və ya digər dərəcədə təkan verir. Dördüncüsü, bəşər mədəniyyətindən bəhrələnən mədəniyyətlər "inkişafda gecikən mədəniyyətlər" sırasına aid olur.

Ümumiyyətlə, mədəniyyətlə bağlı fikir və mühakimələrdən belə bir nəticəyə gəlmək olar ki, mədəniyyət üçün məkan cəmiyyətdir, yəni cəmiyyət yarandıqdan sonra mədəniyyət təşəkkül tapmağa başlamışdır ki, bu da sivilizasiyanın inkişafı ilə bilavasitə bağlıdır. Sivilizasiyanın inkişafında isə insan tərəfindən mənimsənilən bilik, bacarıq, vərdişlər, əxlaq, incəsənət, adətlər, qabiliyyətlər kompleksi mühüm yer tutur. Bunların yaranması, formalaşması və tərəqqisi bilavasitə mühitlə əlaqəlidir, mühitdə baş verən hadisələrdən asılıdır.

N.Abbasov tədqiqatlarında insanların milli-mədəni köklərə qayıdışının zəruriliyini qeyd etmiş və inteqrasiyanın qloballaşmaya təsirinin mövcudluğu nəticəsinə gəlmişdir. O bu proseslərdə xalqlar arasında mədəni, siyasi, iqtisadi qarşılıqlı əlaqələrin getdikcə artmasının əhəmiyyətli olduğunu qeyd etmişdir. Təbiidir ki, bu mərhələlər zamanı mühitdə inkişafın mahiyyəti, məzmunu, dinamikliyi, artan xətt üzrə davam etməsi, yaradıcılıq, bədii sənətkarlıq xüsusiyyətlərinin vüsət alması, xalqın maddi-mənəvi dəyərlərinin daha da zənginləşməsinə xidmət etməsi kimi amillərin qanunauyğunluğa çevrilməsi də inteqrasiyanın sürətli və yaxud ləng həyata keçməsinə müvafiq olaraq qloballaşmada yerini göstərir. Bunlar həmçinin elmi-intellektual səviyyənin artımı və keyfiyyət gücündən asılı olaraq baş verir. N.Abbasov qeyd edir ki, bu proseslərdə milli-etnik inkişaf əsas baza olmaqla, həmçinin mədəniyyətdə vahid qlobal harmoniyalılığa meylliliyin yaradılması, cəmiyyətin bir mərkəzdən idarəçiliyi kimi bürokratikliyi zəruri sayanlar və bunun əksinin gözlənilən olduğunu deyənlər də mövcuddur [2, s. 12]. Tədqiqatçı eyni zamanda qeyd edir ki, ayrı-ayrı münasibətlərin xüsusiyyətlərindən asılı olmayaraq inteqrasiyanın bütün planeti əhatə etməsi qarşısıalınmazdır ki, bunun da nəticəsində qloballaşmanın artması və müvafiq olaraq ayrı-ayrı mədəniyyətlərə bu və ya digər dərəcədə təsiri danılmazdır [2, s. 12]. Beləliklə, qeyd etdiyimiz fikirlərin əsasında bildirmək istərdik ki, dünya qloballaşsa da milli-mədəni köklərə qayıdış da möhkəmlənir. Mədəniyyətlərin qorunub saxlanılması üçün hər bir etnosun mənəvi dəyərlərini dərk etməsi və inkişaf etdirməsi zəruridir.

Tarixi dövrlərin hərtərəfli inkişafına müvafiq olaraq mədəniyyətlərdəki milli xüsusiyyətlərlə dünyəvi mədəni məzmunla qarşılıqlı uyğunluq mövcud olmuşdur. Milliliklə bəşəriliyin bu cür uyğunluğu mədəniyyətlərdəki vəhdətə səbəb olur. İlkin mərhələdə milli mədəniyyətlərin elitar gücün təsiri ilə formaca və məzmunca zənginləşməsi, sonralar isə bu milli zənginliyin öz fəaliyyət dairəsini bəşər mədəniyyətinə inteqrasiyası nəticəsində bəşər mədəniyyətinin zənginləşməsi ilə nəticələnir. Burada elitar gücün keyfiyyət amili mühüm əhəmiyyət kəsb edir. İkinci mərhələdə isə beynəlmiləl xüsusiyyətə malik, yəni dünyəviləşən ayrı-ayrı milli mədəniyyətlər vəhdət çərçivəsində öz təsirləri ilə yeni milli

xüsusiyyəti müxtəlif xalqların elitar mədəniyyətlərinin təşəkkülü zərurətini yaradırlar. Beləliklə, tarixi inkişaf mərhələlərində milli mədəniyyətlərin zənginliklərinin zəminində yeni xüsusiyyəti maddi və mənəvi dəyərlərin təşəkkülü, yeni zənginlik yaratmaları qanunauyğun hal almağa başlayır. Mərhələli olaraq milli mədəni hisslərin xalqın hisslərinə çevrilməsi prosesi baş verir. Birinci halda milli hərtərəfli fəaliyyətin inkişafı, milli hisslərlə tərənnümü emosionallıq müstəvisində, ikinci halda isə millətə xas varislik məzmununda özünü göstərir [7].

Professor Ə.Tağıyev qloballaşma şəraitində milli mədəniyyətlərin qorunub saxlanmasının vacibliyini bildirərək yazır ki, qloballığın getdikcə artdığı bir dövrdə bəşər mədəniyyətinin dəyərli tərəfləri olan milli mədəniyyətlərin tənəzzülünə yol verilməməlidir. Digər tərəfdən isə, indiki Qərbə meyllilik şəraitində əsrlərlə yaranan, formalaşan, inkişaf edən zəngin Şərq milli mədəniyyətini də unutmaq olmaz. Müxtəlif tarixi dövrlərdə qədim və zəngin Şərq mədəniyyətinin Qərbə, Qərb mədəniyyətinin isə Şərqə bu və ya digər səviyyələrdə təsiri olmuşdur [10, s. 20].

Rus filosofu Y.D.Qranin Rusiyada özünüdərklə bağlı müqayisələrində Rusiyada etnik özünüdərki milli özünüdərkdən üstün sayır [11, s. 16-17]. Hazırki dövr araşdırmalarında "millət" anlayışının məzmununda, əsasən, dövlətlərin zəruriliyi əsas götürülür. Çağdaş araşdırmalarda "identiklik", həmçinin sosial təsisatlara aid edilir ki, bu zaman siyasi bərabərlik, qanunun aliliyi, ideologiyanın müdafiəsi, vətəndaş həmrəyliyi və dövlətçilik ön plana çəkilir. Eyni zamanda, tədqiqatçılar milli mədəniyyət anlayışını dövlət identikliyi ilə əlaqələndirirlər. Onlar həm də millətçiliyə öz münasibətlərini bildirirlər.

### 3. Mədəniyyətdə müasir texniki sivilizasiyanın rolu

Milli mədəniyyətdə müasir texniki sivilizasiyanın rolu filosoflar tərəfindən araşdırılmaqdadır. Texniki sivilizasiyanın minilliklərə malik sivilizasiya kökləri əsasında olduğu məlumdur. Hər bir milli mədəniyyətin yaradıcısı xalq olduğundan "mədəni xalq" anlayışı da sivil xalqa məxsusdur. A.Toynbi, O.Şpenqler və digər filosoflar inkişafın əvvəlcədən proqnozlaşdırılmasının və həmçinin tarixin obyektiv gedişatına təsir göstərməsinin qeyri-mümkünlüyünü qeyd etmişlər. Təbii ki, milli mədəniyyətlərin daxili mexanizmi olan elitar mədəniyyətin də hər hansı tarixi dövrdə, hansı xalq tərəfindən tərəqqi edəcəyini əvvəlcədən bildirmək qeyri-mümkündür.

Tədqiqatçılar mənəvi mədəniyyətlə bağlı mövcud sosial dinamikadan bəhs etmiş, bu sahədəki çətinliklərin aradan qaldırılmasını və imkanların düzgün qiymətləndirilməsini vacib saymışlar.

Müxtəlif xalqların mədəniyyətinin ziddiyyətlilik zəminində bir-birilərinə qarşıdurmaları zamanı həmin xalqlara məxsus milli kimliyin mühüm amil kimi özünü göstərməsi baş verir.

Beləliklə, milli mədəniyyətlərin bəşər mədəniyyətinə inteqrasiyası prosesində bir neçə başlıca tələblərə əməl olunması vacibdir: 1. Elitar inkişafın mühüm amili olan şəxsiyyətin nüfuzu qorunmalı, onun milli və bəşər mədəniyyətinə verdiyi töhfələr qiymətləndirilməli, ictimaiyyətdə təbliğ edilməli, kütlələr tərəfindən daha dərindən qiymətləndirilməsinə şərait yaradılmalıdır; 2. Elitar inkişafa təkan verən imkanlar yaradılmalı, elm, mədəniyyət, incəsənət və digər sahələrdə tərəqqiyə nail olmaq istiqamətində xalq arasında tədbirlər həyata keçirilməli, yeniliyin tanıdılması və təbliğinə ciddi diqqət və qayğı göstərilməlidir; 3.Milli-mənəvi dəyərlər, milli xüsusiyyətlər qorunmalı, mühafizə edilməli, ayrı-ayrı tarixi dövrlərə malik maddi, mənəvi dəyərlər, bədii sənətkarlıq nümunələrinin bərpası və gələcək nəsillərə ötürülməsi istiqamətində də müvafiq tədbirlər həyata keçirilməlidir; 4. Mədəniyyətlərin inteqrasiyasından sonra beynəlxalq mədəni təcrübələrin milli-mənəvi, ənənəvi xüsusiyyətlərlə əlaqələndirilməsi və fərqləndirmə prinsipinə əməl

edilməsi əhəmiyyətlidir; 5. Elitar inkişafın kütləvi mədəniyyətə təsirinin nizamlanması, planlı şəkildə həyata keçirilməsi, millətlərin mədəni fəaliyyətlərinin daha da çiçəklənməsinə yönəldilməsi tədbirlərinin qarşılıqlı əlaqəli təşkilinə önəm verilməlidir; 6. Milli-mədəni fəaliyyətin inkişafı prosesində xalqın tarixi, etnoqrafiyası, ədəbiyyatı, dekorativ-tətbiqi sənətkarlığı, memarlığı və digər mədəni aspekt və istiqamətlərinin nəzərə alınması və onlara dəyər verilməsi vacibdir; 7. Dünya mədəniyyət siyasətinin mahiyyət etibarilə bəşəri olduğuna görə bu prosesin tətbiqində milli mədəniyyətlərin əlaqələndirilməsi sayəsində bəşəriyyətə humanist ideyalar aşılanmalı, bəşər mədəniyyətinə müasir prizmadan baxışın həyata keçirilməsi beynəlxalq qurumların öhdəsinə düşür; 8. Yaradılan mədəni əlaqələr səmərəli, keyfiyyətli olmalı, bəşəri əhəmiyyət kəsb etməli və bu baxımdan ayrı-ayrı xalqları bir-birinə yaxınlaşdırmalı, birgə mədəni layihələrin yerinə yetirilməsinə xidmət etməlidir. 9. Xalqlar bir-birinin zəngin və dəyərli mədəni sərvətlərindən bəhrələnməli, tarixi əhəmiyyətli mədəniyyətlərlə bağlı elmi-mədəni tədbirlər planlaşdırılmalı, ayrı-ayrı xalqların mədəni inkişaf təcrübələri öyrənilməli, təbliğ edilməlidir.

### 4. Milli-mənəvi dəyərlər və mədəniyyət

Tədqiqatçı alim Z.Şabanov milli mədəniyyətin inkişafında milli-mənəvi dəyərlərin rolunu yüksək qiymətləndirir. O bu məsələyə həsr etdiyi məqaləsində qeyd edir ki, xalqların əldə etdikləri milli mədəniyyətlərinin, şüurlarının mərhələlərlə inkişafında, formalaşmasında həmin xalqların özlərinə məxsus milli-mənəvi dəyərləri mühüm əhəmiyyətə malikdir. Bu proseslərdə isə insanların mənəvi dünyasının davamlı inkişafında mühüm təsirə malik amillərin əsaslı rolu danılmazdır. Milli-mənəvi dəyərlərin xalq tərəfindən daha da zənginləşdirilməsi, qorunması, gələcəyə ötürülməsi, dəyərlərdə mütləqlik və nisbiliklə bağlı məsələlər fəlsəfi fikir tarixində maraqlar yaratmış, həmçinin ziddiyyətli fikirlər də mövcud olmuşdur. Xalqın milli-mənəvi dəyərləri dedikdə, həmin xalqın mənəvi aləmi, tarixi, yaddaş salnaməsi, incəsənəti, ədəbiyyatı, xalqın xüsusiyyətinə uyğun öxünüdərki, musiqisi, ailə həyatı və s. başa düşülür. Yəni xalqın tarixi inkişaf mərhələlərində qazandığı, bəhrələndiyi nailiyyətləri, uğurları, keyfiyyətləri milli-mənəvi dəyərlər kimi qiymətləndirilir. *"Bir sözlə, milli və mənəvi olan bütün nailiyyət və keyfiyyətlərimiz milli-mənəvi dəyərlər sisteminə aiddir"* [1, s. 145]. Dəyərlərlə bağlı formalaşma, inkişaf, tərəqqi prosesləri isə tarixlərin inkişaf mərhələlərinin məhsulu olmaqla mürəkkəb prosesdir, durmadan inkişafdadır, xalqın fəaliyyəti ilə uyğunluq təşkil edir, mütərəqqi məzmunu ilə getdikcə zənginliyini artırır [1, s. 145].

Qeyd etməliyik ki, milli-mənəvi dəyərlərin qiymətləndirilərək bəşəri dəyərlər sırasında fərqləndirilməsi də mürəkkəblik müstəvisindədir. Burada əvvəlcə intellekt vasitəsilə fərdi "nailiyyət"i xalqın "nailiyyəti"nə çevirmək, sonrakı mərhələlərdə isə "əldə olunan"ın bəşəriləşməsinə nail olmaq prosesləri ayrı-ayrı tarixi dövrlərdə baş verir. Bu zaman xalq tərəfindən, sonra isə bəşər tərəfindən dəyərləndirmə mərhələlərində "qəbul olunma" və yaxud bunun "inkar"ı kimi əksi baş verir. Təbii ki, bu zaman milli-mənəvi mədəni dəyərlərin özünəməxsus xüsusiyyətləri nəzərə alınır: birincisi, milli-mədəni dəyərlərdə mürəkkəblik mövcuddur. Çünki hər bir xalqın özünəməxsus şəraiti, tarixi, adət-ənənəsi və fəaliyyət tarixi vardır. İkincisi, hər milli mədəniyyətdəki ziddiyyətlilik daim inkişafa səbəb olur. Bu inkişafda intellekt-fərdin, şəxsiyyətin elitarlıq səviyyəsində çıxış etməsi ziddiyyətlərlə müşayiət olunur. Fərd inkişaf edərək "şəxsiyyət"ə qədərki və sonra elitarlığadək olan mərhələlərdə tərəf müqabilləri ilə həmişə ziddiyyətdə olur. Üçüncüsü, hər milli mədəniyyətdə zənginlik vardır ki, məhz elit şəxsiyyətlərin məqsədyönlü fəaliyyətləri sayəsində bu zənginlik daha qabarıq şəkildə həm xalq arasında, həm də dünya mədəniyyətinə inteqrasiyada tətbiq edilir. Dördüncüsü, hər milli mədəniyyətin tərkibində ictimai hadisələr, tarixi məqamlar, keçdiyi inkişaf yolu olduqca maraqlıdır və digər xalqların da marağına səbəb olur. Milli mədəniyyətin maraqlı mexanizm olması və bəşər

mədəniyyətinə də daha "rəngarəng" forma və məzmunda ötürülməsi həmin xalqın tərkibindən yetişmiş elit-fərdin bacarıq və qabiliyyəti ilə ölçülür.

Beləliklə, milli mədəniyyət həm əvvəl, həm də bəşər mədəniyyətinə çevrildikdən sonra bütövlükdə, cəmiyyətin inkişafında böyük əhəmiyyət kəsb edir. Yeni yaranan və bəşər mədəniyyəti vasitəsilə formalaşan nəsillərdə fərqli tələbatlar meydana çıxır. Yeni tələbatlar da öz növbəsində ayrı-ayrı milli, müasir tələbatlara uyğun mədəniyyətlərin yaranmasını tələb edir. Bundan ötrü daha intellektli elitar qüvvəyə ehtiyac yaranır. Bu isə insanın biliklərinin və dünyagörüşünün müntəzəm olaraq artırılmasını tələb edir. Yəni formalaşmaqda olan insan kapitalına durmadan ehtiyac artır.

### 5. Kulturoloji baxış

Tədqiqatçı-alim Fuad Məmmədov tərəfindən Azərbaycan mədəniyyətinin inkişafına elmi baxımdan yardım göstərilməsi, mədəniyyətin daha da təkmilləşdirilməsi və effektiv təcrübi nailiyyətlərin əldə olunması məqsədilə beynəlxalq kulturoloji fikrin araşdırmaları əsasında "Kulturologiya piramidası" universal cəmiyyət və dövlətin inkişaf keyfiyyətinin artırılması üçün ən yeni imkanlar açan, həmçinin şəxsin özünün təkmilləşdirməsinə şərait yaradan mədəniyyətin dərki və dəyişdirilməsinin üç məntiqi-öyrətmə, dərk etmə və yaratma səviyyələrini göstərir [8, s. 29-30].

Xalqın düşünülmüş formada yaratdığı maddi və mənəvi nümunələr təfəkkür və dil, təsvir, forma, görüntü, səs vasitəsilə dərk olunur, əsrlərlə öz təsirini aşılamaq gücünə malikdir. Qeyd edək ki, dil, simvollarla bərabər əqidə, etiqad, bilik də mədəniyyətin mühüm ünsürləridir. Normativ dəyər mexanizmi mədəniyyətin mühüm ünsürü sayılır. Bu ünsür öz növbəsində yarımünsürlərə – sərvət, sosial norma və tərzlərə ayrılır.

Hazırda mövcud olan yeni təfəkkür tərzi vasitəsilə müasir Azərbaycan mədəniyyətinin dərki üçün çox gözəl imkanlar yaradılmışdır. Müstəqilliyimizin bərpasından sonra xalqımızın həyatında baş verən milli siyasi oyanışlar, insanlarda keçilən tarixi dövrlərin səciyyəsini, həmin xüsusiyyətlərin məzmun və mahiyyətini təcəssüm etdirir. Bu baxımdan XX əsrin sonu-XXI əsrin əvvəlləri milli təfəkkür tariximizdə mühüm mərhələdir. Azərbaycanda milli təfəkkürün formalaşması prosesində Qərb və Şərq yönümlü inkişaf xəttinin seçilməsi kifayət deyildi, həmçinin insanların öz daxilində fəaliyyət istiqamətlərinin təyini ilə bağlı narahatçılıq hökm sürürdü. Belə ki, klassik təfəkkür (Şirvan mədəni mühiti) intibah mədəniyyətinin yaradıcısı folklor (xalq) təfəkkürünü sıradan çıxarmağa cəhd göstərirdi [6, s. 196].

XX əsrin 60-cı illərindən başlayaraq, milli dildə, milli ruhda əsərlərin yazılmasına başlanıldı. Sanki milli elitar mədəniyyətin daha qabarıq şəkildə özünü göstərməsinə imkanlar açıldı. Bütün bu imkanların yaradıcısı Ulu Öndər Heydər Əliyev olmuşdur. Bu dövrdə artıq xalqımızın milli təfəkküründə "yeniləşmə", formalaşma gedirdi, xalq özünün siyasi, fəlsəfi, bədii-estetik, yaradıcılıq düşüncələrinə nail oldu.

1991-ci ildən öz milli müstəqilliyini bərpa edən xalqımız, iqtisadi, siyasi, hərbi çətinliklərlə üzləşsə də, 1993-cü ildən etibarən məhz Ulu Öndərin xalqın tələbi və təkidi ilə hakimiyyətə gəlişindən sonra, bütün sahələrdə olduğu kimi, mədəniyyətdə də dirçəliş, milli mədəniyyətimizin bəşər mədəniyyətinə inteqrasiyası, ümumiyyətlə tərəqqi prosesi baş verdi. Xüsusilə də, milli mədəniyyətin statusunun müəyyənləşdirilməsində Azərbaycanda qəbul edilən normativ-hüquqi sənədlərin qəbulu bunun bariz nümunəsidir. 1995-ci ildə Azərbaycan Respublikasının Konstitusiyasının, 1998-2000-ci illərdə bir çox sahələrlə, o cümlədən milli mədəniyyətimizlə bağlı müvafiq normativ-hüquqi aktların qəbul edilməsi ölkəmizdə yeni yaradıcı, humanist prinsiplər əsasında milli mədəniyyətimizin sürətli inkişafına və tərəqqisinə şərait yaratdı.

Məlum olmuşdur ki, xalq mədəniyyəti, elitar və kütləvi mədəniyyətlərin təşəkkülü, inkişafı, formalaşma mərhələləri məzmun baxımından fərqlənirlər. Elitanın təşəkkül etməsi

və inkişafı üçün vacib mənbə xalq mədəniyyətidir. Çünki illərlə, əsrlərlə xalqın ümumi inkişafı məzmununda onun mədəniyyəti, incəsənəti də yaranır, xalq arasında yayılır və qorunur. Məhz xalqın qoruyub saxladığı bu mədəniyyət və incəsənət elit qüvvənin yaranmasına səbəb olur. Mədəniyyətin, incəsənətin ayrı-ayrı sahələri üzrə maraqlar formalaşdıqca, elitar yaradıcılığa istiqamətlənmə baş verir. Nəticədə formalaşma fərqli yaradıcı təfəkkürlü elitaların fəaliyyətində zənginlik müstəvisində özünü qabarıq təzahür etdirir. Elitar yaradıcılıq nümunələrinin kütləviyə çevrilməsi mütləq xarakter alır. Beləliklə, ümumxalq yaradıcılığı əvvəlcə elitar yaradıcılığa, sonra isə kütləvi mədəniyyətə çevrilmə ilə nəticələnir [3, s. 34].

Hazırda mədəniyyətin dəyərləndirilməsində, qorunmasında yaşlı və orta nəsil ilə gənc nəsil arasında fərqlər mövcuddur: 1. Yaşlı və orta nəsil adət-ənənə və tarixi köklərin əsasında mədəniyyətlərin inkişafını və davamını həyata keçirir. Gənc nəslin isə bir qismi kortəbiiliyə uyaraq "məqsədsiz" mahiyyət, məzmun arxasınca getməyə can atır; 2. Yaşlı və orta nəsil incəsənətin müxtəlif növləri vasitəsilə bədii sənətkarlıq və yaradıcılıq nümunələrindəki milli-mədəni dəyərlərin gələcək tarixi dövrlərə ötürülməsinə çalışır; Bu prosesdə də bir qisim gənc nəsil isə bu istiqamətdə bəsit fikirləri ilə kifayətlənməyə çalışır, ən "asan, rahat" olanla əylənməyə can atır.

**6. Mədəni inkişafda yaradıcılığın mühüm yeri**

Müxtəlif xalqların fərqli mədəniyyətləri mövcud olduğundan ayrı-ayrı tarixi dövrlərdə bu mədəniyyətlər bir-biri ilə mütləq qarşılıqlı əlaqədə inkişaf yolunu keçirlər. Hər xalqın özünəməxsus maddi, mənəvi və mədəni dəyərləri vasitəsilə fərqlilik özünü göstərir. Tarixi dövr bu dəyərlərin mənimsənilməsini, qəbul edilməsini tələb etdiyindən vahidliyə, inteqrasiyaya meyillilik artır. Məhz mədəniyyətdə vahidlik nəticəsində kütləviliyə istiqamətlənmə baş verir və həmçinin mənimsəmədə müəyyən qədər rahatlıq özünü göstərir. Beləliklə də, ayrı-ayrı mədəniyyətlər arasında qarşılıqlı əlaqə nəticəsində bir-birinə bağlılıq vahidlik müstəvisində qarşılıqlı əlaqədən qanunauyğunluğun yaranması səviyyəsinə qalxır. Nəticədə maddi, mənəvi və mədəni dəyərlərin istehsalı və kütləvi istehlakı prosesi baş verir. Bu prosesdə elitarlıq aparıcı mexanizmə çevrilir. Bununla da elitar mədəniyyət vasitəsilə kütləvi mədəniyyətin istiqamətlənməsi, inkişafı prosesi baş verir ki, bunun da inkişaf sürəti elitar mədəniyyət tərkibində olan aparıcı zehni fəaliyyətin gücü ilə ölçülür.

Dini istiqamətli baxışlarda milli mədəniyyətin bəşər mədəniyyətinə çevrilməsində müxtəlif nəzəri müddəalar irəli sürülür. Ümumiyyətlə, istiqamətindən asılı olmayaraq nəzəriyyəçilərin fikrincə, öz elitar səviyyəsi ilə seçilənlərin özünü təqdim etməsi, özünütəzahürü, özünüifadəsi prosesi baş verirsə, kütləvi mədəniyyət prosesində isə kütlələrin tələbatına görə istehlak prosesi yaranır. Təbii ki, kütlənin bir hissəsi bundan bəhrələnir, tələbatlarına görə onlar öz dünyagörüşlərinə uyğun zənginləşmə prosesində olurlar. Bu baxımdan T.Adorno öz tədqiqatlarında qeyd edir ki, elitar və kütləvi mədəniyyət ümumsosioloji yox, tarixi fenomendir [6, s. 169-170].

Elitanı təşkil edən insanlar elitar mədəniyyətin yaradıcıları olmaqla bərabər, kütləvi mədəniyyətin inkişafına da təkan verən, həmçinin sivil cəmiyyətin aparıcı qüvvələri sayılırlar. Bu proses hər bir milli mədəniyyətin daxili məzmununu təşkil edir, yəni milli mədəniyyətin inkişafında mühüm amil sayılan yaradıcı qüvvələr - şəxsiyyətlər, yüksək bacarıq və qabiliyyətə malik olanlar, fitri istedadlı insanlar, elm və incəsənət xadimləri, eləcə də digər seçilmişlər milli mədəniyyətin inkişafı zəminində həmin xalqın mədəniyyətinin kütləvi xarakter almasına səbəb olmaqla, eyni zamanda bəşər mədəniyyətində elitar fenomenlərə çevrilərək dünya mədəniyyətinin kütləviliyinə yardım etmiş olurlar.

Elitar mədəniyyətdən bəhs edərkən maarifçilik ideologiyası ənənələrini də vurğulamaq lazımdır. Maarifçilik sayəsində müvafiq məlumatları əldə edən elita kütlələrə

mədəniyyətin bu və ya digər sahələri haqqında ən vacib informasiyaları verməklə onları zənginləşdirir, zövqlərin inkişafına təkan verir, gələcək fəaliyyətlərində fəallığını təmin edir. Ayrı-ayrı tarixi dövrlərdə elitar mədəniyyətdə mövcud olmuş mühafizəkarlıq ideyalarında əsasən elita tərəfindən mədəniyyət və incəsənətin tamamilə kütlələrə bəxş edilməsi tövsiyə olunurdu. Əgər belə olmasaydı, yüksək zövqə və bacarığa, bilik və dünyagörüşünə malik elita digərlərindən fərqlənməzdi. Həmçinin məxfilik və yüksək mədəniyyət vasitəsilə elita kütlənin səviyyəsinə enməli idi. Bu cür ideyalar elitar mədəniyyətin sələflərinə xasdır [4, s. 18].

**Nəticə**

Beləliklə, tədqiqatla bağlı müvafiq olaraq aşağıdakı nəticələrə gəlmək olar:

1. Çoxmədəniyyətliliyin ən geniş yayıldığı cəmiyyətlərdə milli mədəniyyətlər adət-ənənələr, milli folklor nümunələrinin müxtəlifliyi və rəngarəngliyi ilə fərqlənir. Bu baxımdan da multikultural cəmiyyətlərdə adət-ənənələrə əsaslanan milli məzmunlu kütləvi mədəniyyətin öz varlığını qoruması üçün daha münbit şərait vardır. Sevindirici haldır ki, ölkəmizdə də multikultural ənənələr hökm sürməkdədir və bu ənənələrin tarixi olduqca qədim dövrlərə təsadüf edir. Bu baxımdan da ölkəmizdə yaşayan etnik birliklərin həm elitar mədəniyyət, həm də kütləvi mədəniyyət nümunələri öz varlığını qoruyub saxlamaqdadır;
2. Müasir dövrdə isə həm obyektiv, həm də subyektiv proses kimi qabarıq bir şəkildə özünü geniş sahədə büruzə verən qloballaşma hadisəsi zamanı kütləvi xarakterə malik olan milli mədəniyyət nümunələri digər mədəniyyətlər tərəfindən assimilyasiya prosesinə məruz qalır. Nəticədə milli xarakterə malik olan kütləvi mədəniyyət nümunələri özünəməxsusluğunu və orijinallığını itirir. Bu prosesin gələcək tədqiqatlarda araşdırılması zəruriyyətə çevrilir.

## ƏDƏBİYYAT

***Azərbaycan dilində:***


1. Abbasov N. Milli–mənəvi dəyərlərin formalaşması kompleks proses kimi // Etika. estetika, aksiologiya: epistemoloji problemlər. Bakı: AFPoliqrAF, 2020, 862 s.
2. Abbasov N. Mədəniyyət siyasəti və mənəvi dəyərlər. Bakı: Təknur, 2009, 451 s.
3. Cəfərova M. Müasir dövrdə elitar və kütləvi mədəniyyətlər arasında qarşılıqlı əlaqəlilik // Bakı Avrasiya Universiteti, Sivilizasiya (elmi-nəzəri jurnal). 2017, c. 6, №4 (36), s. 32-36.
4. Dadaşov X., Sadıxov A. Azərbaycan mədəniyyəti və ünsiyyət problemi //Bakı: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin “Elmi əsərlər”i, 2022, №31, s. 24-29.
5. Göyalp Z. Türkçülüyün əsasları. Bakı: Maarif, 1991, 175 s.
6. Mədəniyyət tarixi və nəzəriyyəsi. Ali məktəblər üçün dərslik. Bakı: Sabah, 2010, 876 s.
7. Mədəniyyətdə millilik və beynəlmiləlçilik.URL: (https://kayzen.az/blog/ kulturologiya/4130/m%C9%99d%C9%99niyy%C9%99td%C9%99–millilik–v%C9%99–beyn%C9%9 9lmil%C9%99l%C3%A7ilik.html).
8. Məmmədov F. Kulturologiya, mədəniyyət, sivilizasiya. Bakı: “OL” MMC, 2016, 260 s.
9. Ömərov V. Azərbaycançılıq və Azərbaycanın milli mədəniyyəti. (https://sesqazeti.az/news/mia/199305.html)
10. Tağıyev Ə. Milli kimlik və multikultural proseslər. Bakı: Gənclik, 2017, 204 s.

***Rus dilində:***

11. Гранин Ю. Станет ли Россия «национальным государством?» // Вопросы философии, 2011, №1, с.15-27.
12. Мамедзаде И. Философия о современности, истории и культуре (Оконтурахисторико-культурной эпистемологии. Баку, Elm və təhsil, 2020, 224 с.

***Резюме***

***Махсати Джафарова***

***Проблемы элитарности и массовости в национальной социокультурной среде:взаимосвязанность***

Поскольку каждый народ имеет разную культуру, в разные исторические периоды эти культуры проходят путь развития во взаимном взаимодействии друг с другом. Разница проявляется через уникальные материальные и духовные культурные ценности каждого народа. Поскольку исторический период требует усвоения и принятия этих ценностей, тенденция к единообразию и интеграции возрастает. Именно в результате единообразия культуры возникает массовая ориентация, а также проявляется определенная легкость ассимиляции. Таким образом, в результате взаимодействия разных культур взаимосвязь поднимается до уровня возникновения закономерности из взаимодействия на уровне единства. В результате происходит процесс производства и массового потребления материальных и духовных культурных ценностей. Ведущим механизмом в этом процессе становится элитизм. При этом через элитарную культуру происходит процесс ориентации и развития массовой культуры, скорость которого измеряется силой ведущей мыслительной деятельности, содержащейся в элитарной культуре.

Люди, составляющие элиту, считаются творцами элитной культуры, а также ведущими силами цивилизованного общества, стимулирующими развитие массовой культуры. Этот процесс составляет внутреннее содержание каждой национальной культуры, т.е. творческие силы, которые считаются важным фактором развития национальной культуры - личности, обладающие высокими навыками и способностями, прирожденно талантливые люди, ученые и художники и другие избранные люди, основу развития национальной культуры, массовость культуры этого народа, в то же время они становятся элитарными явлениями в человеческой культуре и вносят вклад в массу мировой культуры.

Отдельные культуры со временем гуманизируются в процессе интеграции. В этом процессе, наряду с взаимообогащением и гуманизацией национальных культур, создается среда для их свободного развития. Иными словами, развитие человечества во взаимодействии национальности и человечества обуславливает также необходимость развития элитной и массовой культур во взаимодействии, которое происходит во временных рамках. В такой взаимосвязи выявляются сходства и различия. В условиях интеграции в условиях глобализации люди возвращаются к своим национально-культурным корням, и в это время также проявляют свое влияние факторы нации и национализма. Фактор национальной идентичности проявляется и в процессе конфликта культур разных народов друг против друга на основе противоречий. Конечно, значительное влияние национальных культурных и духовных ценностей во всем таком взаимосвязанном развитии неоспоримо. Такие эффекты напрямую зависят от образа мышления. Взаимосвязь научного и художественно-творческого мышления приводит к «очищению» ценностей, созданных народами в цивилизации, и происходит «изменение» культуры. Необходимо постараться не разрушить важные характеристики национальных культур. Таким образом, в обществах, где широко распространен мультикультурализм, национальные культуры должны сохранять свое существование, обогащать и развивать человеческую культуру дальше.

**Ключевые слова:** *национальная культура, социокультурная среда, элитарная культура, массовая культура, общечеловеческая культура, национальные особенности, национально-этническое развитие, развитие элиты, мультикультурализм, глобализация*

***Summary***

***Mahsati Jafarova***

***Issues of elitism and mass in the national socio-cultural environment: Interconnectedness***

Since each nation has a different culture, in different historical periods, these cultures pass the development path in mutual interaction with each other. The difference is manifested through the unique material and spiritual cultural values of each nation. Since the historical period requires the assimilation and acceptance of these values, the tendency to uniformity and integration increases. It is as a result of uniformity in culture that mass orientation occurs, and also a certain ease in assimilation manifests itself. Thus, as a result of the interaction between different cultures, the interconnectedness rises to the level of the emergence of regularity from the interaction on the level of unity. As a result, the process of production and mass consumption of material and spiritual cultural values takes place. In this process, elitism becomes the leading mechanism. With this, the process of orientation and development of mass culture takes place through elite culture, the speed of which is measured by the strength of the leading mental activity contained in elite culture.

The people who make up the elite are considered to be the creators of the elite culture, as well as the leading forces of the civilized society, who stimulate the development of the mass culture. This process constitutes the internal content of each national culture, i.e. creative forces, which are considered an important factor in the development of national culture - personalities, those with high skills and abilities, innately talented people, scientists and artists and other chosen ones, on the basis of the development of national culture, the mass character of the culture of that nation. at the same time, they become elite phenomena in human culture and contribute to the mass of world culture.

Separate cultures become humanized by the process of integration over time. In this process, along with the mutual enrichment and humanization of national cultures, an environment for their free development is created. In other words, the development of humanity in the interaction between nationality and humanity also necessitates the development of elite and mass cultures in interaction, which happens within the time frame. Similarities and differences are revealed in such interrelation. In the conditions of integration in globalization, people are returning to their national-cultural roots, and at this time, the factors of nation and nationalism also show their influence. The factor of national identity also manifests itself in the process of conflicting cultures of different peoples against each other on the basis of contradictions. Of course, the significant influence of national cultural and spiritual values in all such interconnected development is undeniable. Such effects directly depend on the way of thinking. The interrelationship of scientific and artistic-creative thinking results in the "purification" of the values created by peoples in civilization, and a "change" occurs in culture. It is necessary to try not to destroy the important characteristics of national cultures. Thus, in societies where multiculturalism is widespread, national cultures must preserve their existence, enrich and develop human culture further.

**Keywords:** *national culture, socio-cultural environment, elite culture, mass culture, universal culture, national characteristics, national-ethnic development, elite development, multiculturalism, globalization*

Redaksiya heyətinin üzvü f.e.d., prof. Rüstəmov İzzət Əşrəf oğlunun rəyi əsasında çapa məsləhət görülmüşdür.